*Qəmzə HACIYEVA*
***Baş müəllim***

# HÖRMƏTLİ MÜƏLLİM!

Hər sənətin şərəfi onun məqsədindədir. Gənc nəslin əqlinə bilik nuru səpən, onun qəlbində ən nəcib əxlaqi keyfiyyətlərin kök atıb böyüməsinə şərait yaradan müəllimlik sənəti ən şərəfli peşələrdəndir. Görkəmli mütəfəkkir N.Tusi demişdir ki, bu dünyadakı mövcudiyyatın ən şərəflisi olan insanı kamilliyə çatdırmaq məqsədini güdən sənət dünya sənətlərinin ən şərəflisi olmalıdır. Belə peşə sahiblərindən biri görkəmli alim, mahir pedaqoq, professor Abuzər Xələfovdur. Bu gün nəinki universitetdə, o cümlədən respublikamızda və onun hüdudlarından çox-çox kənarda tanınan bu ağsaqqal, müdrik insan ömrünü elm yolunda, gənc alimlərin, kitabxanaçı kadrların yetişməsində çıraq etmiş və bu çırağın nuruna yüzlərlə insan toplaşaraq ondan bəhrələnmişlər.

Müdriklər demişlər ki, elm sahibləri yalnız elmlərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və özlərinin xeyirxahlığı ilə də seçilməlidirlər.

Şəxsiyyətinə çox böyük hörmət və ehtiram bəslədiyim professor A.Xələfov həmişə fakültəmizin ağsaqqalı olub, istər müəllimlərə, istərsə də tələbələrə böyük atalıq qayğısı ilə yanaşır. Ona hər hansı bir məsələ ilə əlaqədar müraciət etdikdə diqqətlə dinləyib, əlindən gələn köməkliyi edir, dəyərli məsləhətlər verir.

Professor A.Xələfov rayondan gəlib şəhər mühitinə düşmüş yüzlərlə tələbənin burada yaşayıb təhsil alması üçün bir ata kimi şərait yaradıb, onların qayğılarına qalmışdır. Vaxtilə qızların yaşadığı yataqxanada ayrıca bir mərtəbənin bizim fakültənin qızlarına verilməsinə, orada istirahət guşəsi, kiçik kitabxana, mətbəx yaradılmasına nail olmuşdu.

Onun qayğı və diqqətini fakültədə çalışan hər bir orta və gənc nəsil daim hiss edib duyur. Təbii ki, biz də müəyyən yaş dövrü, təcrübə keçsək də əldə etdiyimiz nailiyyətlərə görə ilk növbədə hörmətli müəllimimizə minnətdarıq. Mənim müəllim vəzifəsinə seçilməyimdə ilk xeyir-duanı o vermişdir və sonrakı fəaliyyətimdə də mən onun müəllim, ustad kimi qayğı və diqqətini hiss edib, ona minnətdar olmuşam.

Bu qayğıkeşliklə yanaşı o, həm də ciddi və tələbkardır. Bu tələbkarlığın nəticəsidir ki, onun neçə-neçə aspirantı müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir.

Ətraflı biliyə, geniş məlumata, zəngin dünyagörüşünə malik professor A.Xələfov həmişə axtarışda olan, öyrənən və öyrədən alim-pedaqoqdur. Onun monoqrafiyaları, elmi əsərləri, dərslik və dərs vəsaitləri tədqiqatçıların və tələbələrin oxuyub öyrəndikləri mühüm mənbələrdəndir. Mühazirələrindəki dərin elmi məzmun, reallıqla bağlılıq, zəngin faktlar indiyə kimi mənim yaddaşımda dərin iz buraxmış və bir müəllim kimi formalaşmağımda böyük rol oynamışdır.

Məşhur fateh İsgəndərdən ən çox kimi - atasını, yoxsa müəllimini sevdiyini soruşduqda, o, cavab vermişdir ki, atam məni bu fani dünyaya gətirmiş, müəllimim isə mənə əbədiyyət bəxş etmişdir. Həyat yolu gənc nəslə bir örnək olan professor A.Xələfov tələbələrinə elmi biliklərə yiyələnməkdə köməklik göstərməklə yanaşı, onların bir insan kimi formalaşmalarında da böyük rol oynayır. O, tələbələrin həmişə hörmətini qazanmışdır. Onun tələbəsi olmağı, onun rəhbərliyi altında tədqiqat işi aparmağı hər bir tələbə özünə fəxr və şərəf bilir.

Hörmətli, əziz müəllimim! Sizin 70 illik yubileyinizi mən də səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, çətin, lakin şərəfli işinizdə uğurlar arzulayıram!